

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 214 (23.125)

*8 noyabr 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının uğurla inkişaf etdiyi bildirilib, hazırda ölkəmizlə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni saziş üzrə danışıqların aparıldığı vurğulanıb və bu sazişin gələcək əməkdaşlığın hərtərəfli inkişafı üçün əlverişli imkan yaradacağı qeyd olunub.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi ətrafında, Azərbaycanla Avropa İttifaqı arasında turizm, nəqliyyat, təhsil və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 7-də "Bravo" marketlər şəbəkəsinin metronun "Koroğlu" stansiyasının yaxınlığında yerləşən yeni hipermarketinin açılışında iştirak ediblər.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Rusiyanın Azərbaycandakı səfiri ilə görüşüb



Noyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ilə görüşüb.

Ali Məclisin Sədri Azərbaycanın və Rusiyanın dost ölkələr olduğunu və əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirdi. Naxçıvan Muxtar Respublikası ilə Rusiya arasındakı əlaqələrin tarixinə nəzər salan Ali Məclisin Sədri qeyd etdi ki, hazırda ikitərəfli münasibətlər iqtisadi-ticarət, təhsil, hava nəqliyyatı və turizm sahələrində inkişaf etdirilir. Naxçıvan şəhərində rusdilli məktəb fəaliyyət göstərir, ali təhsil müəssisələri arasında təcrübə mübadiləsi aparılır, Naxçıvan Dövlət Universitetində rus dili ixtisası, ümumtəhsil məktəblərində isə rus dili fənni tədris olunur.

Ali Məclisin Sədri əlaqələrin inkişaf istiqamətlərini diqqətə çatdırdı və səfirin fəaliyyətinin bu baxımdan səmərəli olacağına əminliyini bildirdi.

Mixail Boçarnikov Naxçıvanda olmaqdan məmnunluğunu ifadə etdi, Rusiya-Azərbaycan ikitərəfli münasibətlərinə nəzər salaraq keçirilən qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Əlaqələrin genişləndirilməsindən danışan diplomat Naxçıvana səfərinin bu mənada mühüm əhəmiyyət daşıdığını bildirdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Əhalinin sağlamlığı üzrə ardıcıl tədbirlər həyata keçirilir

*Naxçıvan Muxtar Respublikasında son dövrlərdə həyata keçirilən kompleks tədbirlər bütün sahələrlə yanaşı, səhiyyənin də uğurlu inkişafını təmin etmiş, əhalinin sağlamlığının qorunması diqqətdə saxlanılmışdır.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır"*** prinsipi əsas götürülərək muxtar respublikada səhiyyə sisteminin maddi-texniki bazasının müntəzəm olaraq möhkəmləndirilməsi insanların yüksək səhiyyə xidməti ilə təmin olunmasına geniş imkanlar yaradıb. Belə ki, 2008-ci ildən 1 oktyabr 2018-ci il tarixədək Naxçıvan Muxtar Respublika Xəstəxanası, Doğum Mərkəzi, Duzdağ Fizioterapiya Mərkəzi, Kardioloji Mərkəz, Onkoloji Mərkəz, Yoluxucu Xəstəliklər Mərkəzi, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək Rayon Mərkəzi xəstəxanaları olmaqla, ümumilikdə, 19 xəstəxana, 57 həkim ambulatoriyası, 56 feldşer-mama məntəqəsi və digər səhiyyə obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib.

Səhiyyənin inkişafı istiqamətində Naxçıvan Dövlət Universitetində və Naxçıvan Tibb Kollecində ali və orta ixtisas tibb kadrlarının hazırlanması davam etdirilib. Bununla yanaşı, bu sahədə çalışanların bilik və təcrübələrinin artırılması məqsədilə çoxsaylı seminarların, konfransların keçirilməsi və tibb işçilərinin xarici ölkələrə kurslara göndərilməsi ümumi inkişafa stimul yaradıb.

İnsanların sağlamlığının qorunmasında keyfiyyətli ərzaq məhsulları ilə yanaşı, içməli su təminatı da mühüm rol oynayır. Su ilə yayıla bilən xəstəliklərin azaldılması və su mənbələrinin təmizlənməsi inkişaf edən ölkələrdə əhəmiyyətli sağlamlıq tədbiridir. Bu istiqamətdə muxtar respublikada son dövrlərdə Naxçıvan şəhərində Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, şəhərdaxili su və kanalizasiya şəbəkəsi, Naxçıvan şəhərinin Hacıniyyət, Tumbul, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib. Şərur, Culfa və Şahbuz şəhərlərində, eləcə də ətraf kəndlərində və Babək rayonunun Şıxmahmud, Xəlilli və Şəkərabad kəndlərində içməli su və kanalizasiya şəbəkəsi yaradılıb.

Naxçıvan şəhərində Təmizləyici Qurğular Kompleksi yaradılıb, Şahbuz rayonunda çirkab sutəmizləyici qurğunun, Babək, Ordubad, Kəngərli və Sədərək rayon mərkəzlərində və ətraf kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi hazırda davam etdirilir.

Əhalinin sağlamlığının qorunması üzrə həyata keçirilən mühüm tədbirlər əsas demoqrafik göstərici olan doğulanda gözlənilən ömür uzunluğunun artımına da ciddi təkan verib. Belə ki, 2008-ci ildə muxtar respublikada doğulanda gözlənilən ömür uzunluğu 73,6 yaş, o cümlədən kişilərdə 70,8, qadınlarda isə 76,4 yaş təşkil edirdisə, 2017-ci ildə bu göstərici 78,6, o cümlədən kişilər üçün 76,5, qadınlar üçün isə 80,6 yaş səviyyəsində olub.

Əhalinin sağlamlığının qorunmasının qarşıya məqsəd kimi qoyulduğu muxtar respublikada səhiyyə sahəsində infrastrukturun yenilənməsi istiqamətində cari ilin ötən dövründə də mühüm tədbirlər həyata keçirilib, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası yenidən qurulub, Şərur rayonunun Ərəbyengicə və İbadulla, Babək rayonunun Aşağı Buzqov kəndlərində həkim ambulatoriyası binaları, Culfa rayonunun Dizə, Babək rayonunun Yuxarı Buzqov kəndlərində feldşer-mama məntəqələri istifadəyə verilib.

Ordubad rayonunun Dəstə kəndində həkim ambulatoriyası binasının tikintisi, Şərur Rayon Uşaq Xəstəxanasının, Culfa rayonunun Qazançı kəndində həkim ambulatoriyası binasının yenidən qurulması davam etdirilib.

Muxtar respublikada əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 31 may tarixli Sərəncamına uyğun olaraq cari ilin yanvar ayından Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb.

Bundan əlavə, səhiyyənin tibbi kadrlarla təminatında xüsusi rolu olan Naxçıvan Tibb Kollecinin binasının yenidən qurulması başa çatdırılıb, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin binasının yenidən qurulması hazırda davam etdirilir.

Muxtar respublikada müasir səhiyyə ocaqlarının istifadəyə verilməsi, onların maddi-texniki bazalarının gücləndirilməsi və ixtisaslı tibbi kadrlarla təminatı əhali sağlamlığının bundan sonra da yüksək səviyyədə qorunmasına xidmət edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*Doğma Naxçıvanımızda xalqımızın qədim tarixini, mədəniyyətini, məişət həyatını özündə əks etdirən sənət sahələri günümüzdə yüksək səviyyədə yaşadılaraq gələcək nəsillərə ötürülür.*

## Qədim el sənətini yaşadacaq yeni ünvan

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 15 fevral tarixli "Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı da yaxın gələcəkdə qədim diyarda xalçaçılıq sənətinin daha da inkişaf etdirilməsinə geniş şərait yaradacaq. Sərəncamın icrasına uyğun olaraq Naxçıvan şəhərində bina üçün yer ayrılıb. Cari il mart ayının ortalarından başlanan inşaat işləri hazırda yekunlaşmaq üzrədir.



"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin filiallarından olacaq xalça istehsalı emalatxanasının binası, ümumilikdə, 8 min 500 kvadratmetr ərazini əhatə edir. Obyektin tikintisi "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarına həvalə olunub. Binalardan biri toxuculuq, digəri isə boyaqxana və yun tədarükü məntəqəsi üçündür.

Obyektin iş icraçısı Siyavuş Qasımovdan aldığımız məlumata görə, toxuculuq üçün ayrılan zirzəmi ilə birlikdə ikimərtəbəli binada əsas işlər yekunlaşıb. Hazırda binanın daxilində yer səthinə daş döşənir və taxta örtük vurulur, divarlarda boya işləri görülür. Boyaqxana və yun tədarükü məntəqəsi üçün tikilən binada isə metal konstruksiya işləri aparılır, yaxın vaxtlarda panellərin vurulmasına başlanılacaq. Binaların həyətində abadlıq işləri görülüb, müasir işıqlandırma sistemləri quraşdırılıb. Obyektdə əməyin mühafizəsi və tikinti təhlükəsizliyi qaydalarına ciddi əməl olunur. Burada inşaatçılar üçün lazımi iş şəraiti və istirahət imkanı yaradılıb. İnşaat işlərində, əsasən, yerli tikinti materiallarına üstünlük verilir. Bu da, təbii ki, həm işin keyfiyyətlə aparılmasına, həm də obyektin tez bir zamanda təhvil verilməsinə imkan yaradır.

Layihəyə əsasən toxuculuq üçün inşa olunan binada xalçatoxuma zalı, tibb və sərgi-satış otaqları, xammal və hazır məhsul anbarları, boyaqxana və yun tədarükü məntəqəsində isə yun anbarı, yun yuma yeri, iplik boyama və digər otaqlar fəaliyyət göstərəcək.

Yaxın gələcəkdə istifadəyə verilməsi nəzərdə tutulan xalça istehsalı emalatxanası doğma şəhərimizin görünüşünə əlavə çalarlar qatmaqla yanaşı, həm qədim xalq sənətinin inkişaf etdirilməsinə, həm də yeni iş yerlərinin açılmasına stimul olacaq.

**Xəbərlər şöbəsi**



## Kənd təsərrüfatı

*Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsi prioritet sahələr sırasındadır. Hər il bu istiqamətdə mühüm addımlar atılır, müxtəlif layihələr icra edilir. Görülən işlər isə daxili bazarda yerli ərzaq məhsullarının xüsusi çəkisinin xeyli artmasına səbəb olur. Bu məqamda istər-istəməz bir qədər əvvələ boylanır, dükan-bazarlardakı qıtlığı, növbələri xatırlamamaq mümkün deyil. Xüsusilə də çörək dükanlarının piştaxtaları önündə saatlarla dayanan naxçıvanlıların çəkdikləri əziyyəti unutmaq mümkün deyil və o məqamları bugünkü gəncliyə danışsaq da, buna inanmazlar.*

# Gələn il də taxılımız bol olacaq



Ötən illər ərzində strateji sahə olan taxılçılıqda qazanılan uğurlar həyata keçirilən məqsədyönlü siyasətin real bəhrələri, insan amilinə qayğının bariz nümunəsidir. Faktlara müraciət edək.

2017-ci ilin payızından başlayaraq taxıl zəmilərində torpaq mülkiyyətçilərimizin çəkdiyi zəhmət öz bəhrələrini verib, taxıl tədarükünün nəticələri hamımızı, həm istehsalçıları, həm də istehlakçıları sevindirib.

Məlumat üçün bildirək ki, cari ilin məhsulu üçün muxtar respublikamızda 32 min 483 hektar sahədə taxıl əkilmişdi. Əkin sahələrinin 22 min 632 hektarı buğda, 9 min 851 hektarı arpa olub. Zəmilərdən 97 min 689 ton məhsul tədarük edilib, hektarın orta məhsuldarlığı 30,1 sentnerə çatdırılıb. Təbii ki, bu nəticəyə nail olunmasında bir neçə amil başlıca rol oynayıb. Bu sırada ilk olaraq dövlət qayğısını qeyd etməliyik. Məhz bu qayğının ifadəsidir ki, cari ildə də meliorasiya-irriqasiya tədbirləri davam etdirilib, muxtar respublikaya "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə yeni kənd təsərrüfatı texnikalarının gətirilməsi diqqətdə saxlanılıb. Güzəştli kreditlərin verilməsi davam etdirilib. Taxılçılar tərəfindən yüksək reproduksiyalı toxumların əkilməsinə ciddi önəm verilib. 27 min ton taxılı uzun müddətə saxlamağa imkan verən taxıl anbarlarının, un dəyirmanlarının, çörəkbişirmə sexlərinin fəaliyyəti genişləndirilib. Bu tədbirlər Naxçıvan şəhərindən tutmuş muxtar respublikanın ən ucqar bölgələrini də əhatə edib. Taxıl tədarükündə 80-i sahibkarlara, 15-i "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus olmaqla, 95 kombayndan istifadə edilib.

Uzun illər taxılçılıqda yaxşı təcrübə qazanmış torpaq mülkiyyətçiləri sahələrə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərib, taxıl zəmilərində yüksək məhsuldarlığa nail olmaq üçün sahələrin suvarılmasını, ziyanvericilərə qarşı müvafiq işlərin görülməsini diqqətdə saxlayıb, çəkilən zəhmətin hədər getməməsi üçün tələb olunan bütün təsərrüfat işlərini yerinə yetiriblər.

Sərhəd bölgəsi olan Sədərək rayonu bu il də liderliyi saxlaya bilib. Bölgənin taxılçıları 2466 hektar taxıl zəmisindən 7959 ton məhsul toplayıblar. Bu isə orta məhsuldarlığın 32,3 sentner olması deməkdir. Ayrı-ayrı taxılçılarda bu rəqəm daha yüksəkdir. Rayonun Sədərək kənd sakinləri Elşən Əliyev 20, Qafar Zeynalov isə 30 hektar sahədə taxıl yetişdiriblər. Zəmilərə vaxtında və aqrotexniki qaydada qulluq göstəriblər. Çəkdikləri zəhmət hədər getməyib. Hər ikisi hektarın orta məhsuldarlığını 35 sentnerə çatdırıb. Elşən Əliyev deyir ki, neçə illərdir, taxılçılıqla məşğuldur. Çoxları elə düşünür ki, toxumu torpağa atdın, zəmini suvardın, bununla iş bitdi. Əslində, belə deyil. Taxıl da qayğı istəyir. Bu qayğının qarşılığını verə bilsən, torpaq sənin zəhmətinin əvəzini birə-beş ödəyəcək. Mən bunu neçə illərdir ki, öz fəaliyyətimdə görmüşəm. Tədarük etdiyim taxıldan yaxın günlərdə başlayacağım əkin üçün toxumluq götürmüşəm. Bir hissəsini isə üyüdərək ailəm üçün ayırmış, qalanını da satmışam. Hazırda əkəcəyim sahələrdə şum qaldırılması ilə məşğulam. Çalışıram ki, builki əkin kampaniyasını da vaxtında başa çatdıram.

Ən böyük bölgəmiz sayılan Şərur rayonu taxıl tədarükündə 31,9 sentner məhsuldarlığa nail olub. Bu rayonda 4348 hektar sahədən 13 min 861 ton məhsul tədarük edilib. "Şərur Aqrotexservis" Səhmdar Cəmiyyətinin sədri Aqil Məmmədov deyir ki, cəmiyyətə məxsus olan texnikalarla sahələrin şumlanmasında, taxıl əkinində və tədarükündə taxılçılara yaxından köməklik göstəriblər. Hazırda cəmiyyətə dəyirmanında taxıl üyüdülməsi həyata keçirilir.

Aqil Məmmədovun özü də taxılçılıqla məşğul olur. Cari ildə o, 25 hektar taxıl əkini sahəsindən 100 ton məhsul götürüb. Bu rəqəm məhsuldarlığın 40 sentner olması deməkdir. Sahibkar bunu son həddə hesab etmir. Bundan da yüksək məhsuldarlığa nail olanlardan danışır:

– Zeyvə kənd sakini Rasim Məmmədov 1 hektar taxıl əkini sahəsindən 7,5 ton (75 sentner), dərəkəndli Arif Musayev 1,6 hektar sahədən 11 ton (65 sentner) taxıl tədarük edib. Məhsulun keyfiyyətinə də söz ola bilməz. Rayonda belələri onlarladır. Bölgənin taxılçıları hərtərəfli dövlət qayğısından, rayonun bərəkətli torpaqlarından səmərəli istifadə edir, hər il yüksək nəticələrə nail olurlar. Qazandıqları uğurlar onların taxılçılığa marağını daha da artırır.

Bir vaxtlar dağlıq ərazilərdə taxıl əkilib-becərilməsinə o qədər də diqqət yetirilmirdi. Bunu belə zonalarda taxılın məhsuldarlığının aşağı olması ilə izah edirdilər. Lakin göstərilən hərtərəfli dövlət qayğısı müqabilində daxili bazarın yerli taxıl məhsulları ilə təminatına öz töhfələrini vermək istəyən şahbuzlular sübut etdilər ki, belə ərazilərdə də yaxşı məhsuldarlığa nail olmaq mümkündür. Cari ildə onlar 1615 hektar sahədən 4432 ton məhsul tədarük ediblər. Orta məhsuldarlıq 27,4 sentner olub. Necə deyərlər, torpağa havayı bir dən belə, düşməyib. Ona görə də istehsalçı da, istehlakçı da sevinir ki, yenə də süfrələrimizdə yerli taxılın unundan hazırlanmış çörəyi boldur.

Bunun davamlı olması üçün muxtar respublikanın taxılçıları gələn ilin bol məhsulunun əsasını qoymaqdadırlar. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, noyabr ayının 5-dək 16 min 910 hektar sahədə taxıl səpini keçirilib. Bunun 12 min 868 hektarını buğda, 4042 hektarını arpa təşkil edir. Diyarımızın ən böyük bölgəsi olan Babək rayonunda 5341 hektar sahədə taxıl əkilib. Bu prosesdə Kəngərli rayonu ikinci yerdə gedir. Rayonda 3590 hektar sahədə əkin keçirilib. Culfalı taxılçılar 2896 hektara toxum səpiblər. Şərurda 2082, Sədərəkdə 1063, Ordubadda 801, Şahbuz rayonunda 654, Naxçıvan şəhərində 483 hektar sahədə taxıl əkini aparılıb. Onu da qeyd edək ki, taxılçılar yüksək reproduksiyalı və muxtar respublikanın coğrafi iqlim şəraitinə uyğun toxumdan istifadə edirlər. Hər il olduğu kimi, cari ildə də əkin kampaniyasını vaxtında başa çatdırmaq üçün taxılçılar texnika, yanacaq və gübrə ilə təchiz olunublar. Bu da belə deməyə əsas verir ki, gələn il də taxılımız bol olacaq.

**Muxtar MƏMMƏDOV**

# Yurda və zəhmətə bağlı ömürlər

*Günəşin zərrin şəfəqlərinin xəsisliklə ətrafa yayıldığı bir payız günündə yolumu düşmənə gözdağı olan Sədərək rayonundan salıram. Rahat, abad yolla şütüyən maşının pəncərəsindən ətrafı seyr etdikcə gözlərim önündə müstəqillik illərinin bəhrələri canlanır. Yolboyu nizamla əkilmiş ağacların qızılı rəngə bürünən qol-budaqları mülayim küləyin təsiri ilə sanki rəqs edir, tarlalarda şum aparan texnikaların üzəri payız günəşinin ilıq şüası altında bərq vurur, dəyanətli əsgər kimi vüqarla dayanan dağların üzərini sis, duman alır, zəhmətkeş adamlar isə təbiətin şıltaqlığına əhəmiyyət vermədən çalışırlar. Onları nə əsən külək, nə də sisduman öz sevimli məşğuliyyətlərindən ayıra bilmir.*

Bu gözəllikləri seyr etdikcə qəlbim riqqətə gəlir. Az sonra bu mənzərələr öz yerini geniş küçələrə, səliqə-sahmanı ilə gözoxşayan rahat səkilərə, müasir görünüşlü kənd və xidmət mərkəzlərinə, həyətində "qaçdı-tutdu" oynayan uşaqların şaqraq gülüşlərinin ətrafa yayıldığı məktəb binasına, güllü-çiçəkli park və xiyabanlara verəcək.

– Budur, artıq ünvana çatmışıq, – deyən sürücünün sözləri məni xoş xəyallardan ayırır. Deyir ki, əvvəllər bu yolu qət etmək adamın gözünə dururdu, indi isə çox rahat şəkildə, həm də az vaxta ünvana çatmışıq.

Zəhmətkeş sədərəklilərlə söhbət etmək üçün göz işlədikcə uzanan tarlalara üz tuturam. Elə torpaq adamları ilə də əkin-biçin ərazilərində həmsöhbət oluram. Uzaqdan ucu-bucağı görünməyən bağ-bağat içərisində başını qaldırmadan çalışan torpaq adamı diqqətimi çəkir. İşə o qədər aludə olub ki, ona yaxınlaşmağımı da hiss etmir. Salam verir, işiniz irəli, məhsulunuz bərəkətli olsun, – deyirəm. Hal-əhval tutduqdan sonra nizamla toxunmuş yaşıl xalıya bənzəyən, üzərinə şeh qonan üzüm kolundan bir salxım qoparıb mənə uzadır, buyur, ye, Sədərək üzümünün dadını gör, – deyir. Elə ilk giləsindən bir başqa dadtamı olduğunu hiss edirəm.

– Dayı, neçə il olar üzüm yetişdirməklə məşğulsuz, – deyib söhbətə körpü salıram. Öyrənirəm ki, yaşı 60-ı ötmüş Vəzir İmamverdiyev hələ gənclik illərindən özünü torpağa bağlayıb, gün-güzəranını da bu yolla qurub. Rayonun Sədərək kəndindəki üzüm bağını illər öncə salıb, hər gün qol-budağına sığal çəkmək üçün buraya üz tutur. Bildirir ki, Sədərək üzümü bütün dövrlərdə adla deyilib:

– Sədərəkdə üzümçülüyün inkişaf tarixi hələ ötən əsrin ortalarına gedib çıxır. Mən də gözümü açıb özümü dərk edəndən ata-babamın üzüm yetişdirməklə məşğul olduğunu görmüşəm. Lakin çox təəssüf ki, ötən əsrin 90-cı illərinin gətirdiyi ağrı-acı min bir zəhmət hesabına saldığımız üzüm bağlarına da təsirsiz



ötüşmədi. Üzümlük ərazilər kütləvi halda məhvə düçar edildi. O illərdə indi əkibbecərdiyimiz bu torpaqlarda, bağ-bağatın yerində düşmən güllələrindən çıxan mərmilər məskən salmışdı. Həyət-bacadan gül-çiçəyin xoş rayihəli ətri deyil, ikrahedici barıt qoxusu gələrdi. Pis günün ömrü az olar, – deyiblər. Başımızın üstünü alan qara buludlar uzaqgörən, yolgöstərən insanların sayəsində çəkilib getdi. Qəhrəman el oğullarımızın şücaəti sayəsində mənfur düşmənin Sədərəyə dikilən xain gözləri kor edildi. Bu gün artıq Sədərək öz büsatı, gözəlliyi ilə düşmənin gözdağına çevrilib. Vətənpərvər övladlarımız gecə-gündüz torpağımızın keşiyində dayanır, düşmənin bircə anlıq da olsa, bu tərəfə boylanmağına imkan vermirlər. Biz zəhmət adamlarına isə bərəkətli torpağımızın qulluğunda durub, nazını çəkib meyvəsindən dadmaq qalır. Artıq uzun illərdir, bu bağa qulluq göstərir, ailəmin dolanışığını bu yolla təmin edirəm. Atalarımız gözəl deyiblər: "Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar". Əgər zəhmətə qatlaşıb torpağa baş əysən, o da öz səxavəti ilə başını uca edər.

Torpaq adamı bağında xəlili, kişmişi, hüseyni, ağadayı, hənəqırna, misqalı və digər tanınmış ənənəvi üzüm sortları yetişdirir. Deyir ki, bol üzüm tədarük etmək üçün bağa vaxtlı-vaxtında aqrotexniki qulluq göstərməlisən. Qışda soyuqdan qorunması üçün qolbudağı yaxşı basdırılmalı, erkən yazda isə üstü açılıb, budama aparılmalıdır. İl ərzində



3-4 dəfə su verilməli, xəstəliklərə qarşı tədbirlər görülməlidir. Üzüm, əsasən, sentyabr ayında ərsəyə gəlsə də, tezyetişən sortları da vardır. Elə Vəzir dayının bağında da belə üzümlərdən kifayət qədərdir. Üzümün özü kimi yarpağının da böyük alıcı kütləsi var. Bəh-bəh deyədeyə yediyimiz yarpaq dolmasını ləzzətli edən də elə üzüm yarpağıdır.

Təsərrüfatçı onu da deyir ki, üzümün faydaları barədə xalq təbabətinin biliciləri olan ata-babalarımızdan çox eşidib. Yaxşı bilir ki, bu qiymətli giləmeyvə mədə-bağırsaq sistemi xəstəliklərinə məlhəmdir. O, bağından dərdiyi üzümdən hər il doşab, mürəbbə də hazırlayır. Həm ailə üzvləri dadır, həm də satıb əvəzində yaxşı qazanc sahibi olur.

Sədərəkdə təsərrüfatına üz tutduğum növbəti zəhmət adamı Zakir Zamanov olur. Ömrünün 40 ilini əkin-biçin işlərinə həsr edən fermer müstəqillik illərində fəaliyyət sahəsini xeyli genişləndirib. 2013-cü ildən etibarən gəlirli sahə hesab edilən arıçılıqla da məşğuldur. Deyir, işə başlamazdan əvvəl peşəkar arıçılardan bu sahənin böyük sirli-sehrli aləm olduğunu eşitmişdim. Arı saxlamağa başlayandan işin maraqlı cəhətləri ilə yanaşı, həm də çətinliyini gördüm. Arıçılıqla bağlı hər ötən gün yeni bir məlumat öyrənir, daim axtarışda oluram. Əks-təqdirdə uğur qazanmağın asan olmadığını da yaxşı bilirəm. Sözün açığı, işə başladığım ilk vaxtlarda məhsuldarlığı az görəndə həvəsdən düşürdüm. Lakin zaman keçdikcə çəkdiyim zəhmət öz bəhrəsini verdi. Onu da qeyd edim ki, bu işə cəmi 9 arı ailəsi ilə başlamışdım. Bu il iyun ayında Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondundan aldığım 4 min manat maliyyə dəstəyi hesabına onların sayını 27-yə çatdıra bilmişəm. Ötən illərdə arıçılıqla bağlı keçirilən festivalların da uğur qazanmağımda rolu böyük olub. Elə həmin tədbirlərdə iştirak etdiyim üçün bu gün alıcılar, sözün yaxşı mənasında, başımın üstünü kəsib, daha əvvəlki kimi məhsulu dükan-bazara çıxarmağa ehtiyac qalmır. Hətta Bakı şəhərində yaşayan dosttanışlar da zəng edib arıçılıq məhsullarından sifariş verirlər.

Zakir Zamanov bildirir ki, müxtəlif xəstəliklərin müalicəsində bal və arıçılıq məhsullarının faydası əvəzolunmazdır. Atababalarımız əbəs yerə deməyib ki, bal min bir dərdin dərmanıdır. Allahın bəşəriyyətə bəxş etdiyi bal arısı işgüzar olmaqla yanaşı, həm də qulluqsevərdir. Belə ki, qışda soyuqdan, xəstəlikdən qorumaq üçün arıya düzgün qulluq göstərilməli, mütəmadi olaraq yemlə təmin edilməlidir. Yeşiklər təmiz və quru yerdə saxlanılmalı, xəstəlik yarandıqda dərhal dezinfeksiya edilməlidir. Arı təmiz heyvandır, haram işi qətiyyən sevmir. Gərək onunla xoş rəftar edəsən, yoxsa tez "özündən çıxır". Başqa sözlə, körpə uşaq kimi arının da nazı ilə oynamalısan. Sevindirici haldır ki, yurdumuzun zəngin florası, bağ-bağçalarımızda bitən gül-çiçəklər biz arıçıların işini xeyli yüngülləşdirir. Dövlətimiz də arıçılara qayğı ilə yanaşır, əməyimiz yüksək qiymətləndirilir. Biz də çalışırıq ki, yaradılan imkanlardan lazımınca bəhrələnək, daxili bazarı yüksəkkeyfiyyətli arıçılıq məhsulları ilə təmin edək.

Arxası dağ olanın başı göylərə çatar, – deyiblər. Bu gün düşmənlə bir addımlıqda yaşayıb-yaradan məğrur sədərəklilərin arxasında dağ kimi Azərbaycan əsgəri dayanıb. Rayon sakinləri ürəklərində alovlanan yurd sevgisinin verdiyi böyük güc sayəsində əzm və cəsarətlə çalışır, bölgənin inkişafına öz töhfələrini verirlər.

**Nail ƏSGƏROV**




# Brend məhsulların satıldığı yeni xidmət sahələri
## *Naxçıvanın turizm imkanlarını artırır*

*Naxçıvan Muxtar Respublikası qədim tarixi, zəngin mədəniyyəti, təbii-coğrafi şəraiti ilə mühüm turizm potensialına malikdir. Son illərdə muxtar respublikada yerli turizmin inkişafı üçün əhəmiyyətli addımlar atılır, yeni turizm obyektləri yaradılır, qədim diyar müxtəlif mədəniyyət və idman yarışlarına ev sahibliyi edir. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında indi yeni xidmət sahələrinin yaradılması daha çox diqqəti cəlb edir. Belə xidmət sahələrindən biri də əhalinin, o cümlədən turistlərin alış-veriş ehtiyaclarını təmin etməyə çalışan yeni ticarət şəbəkələrinin fəaliyyətə başlamasıdır.*

İnkişaf etmiş ölkələrin turizm təcrübəsi göstərir ki, turistlər getdikləri yerlərdə alış-verişə böyük maraq göstərirlər. Bu maraq da onlarda bir neçə yöndən yaranır. Belə ki, yenə də araşdırmalara görə, turistlər bir ölkəyə səyahətləri zamanı əvvəlcə planlaşdırdıqları yerlərdə olur, adətən, günün ikinci yarısında və yaxud axşama doğru alış-veriş mərkəzlərinə üz tuturlar. Belə ticarət okyektlərinə getmək zərurəti isə bir neçə səbəbdən yaranır. Bunlardan birincisi, turistlərin öz ehtiyaclarını ödəmək və yaxud yaxınlarına hər hansı bir hədiyyə almaq düşüncəsidirsə, digər tərəfdən vaxtı dəyərləndirmək, istirahət etməkdir. Yəni müasir dövrdə böyük ticarət obyektləri müştərilərini, sadəcə, ticarət niyyəti ilə cəlb etmir, həm də onlara müxtəlif əyləncələr, vaxtı dəyərləndirmək üçün potensial imkanlar təqdim edir. Pərakəndəçilik sektorunun inkişafı ilə bağlı ötən yazılarımızın birində qeyd etdiyimiz kimi, indi müasir alış-veriş mərkəzlərində müxtəlif yemək çeşidləri, çay, kofe, dondurma, uşaqlar üçün əyləncə attraksionları təqdim edən müxtəlif xidmət sahələri fəaliyyət göstərir. Artıq insanlar indi alış-verişə kifayət qədər zaman xərcləyir və bu zaman müddəti çox vaxt düşündüklərindən artıq olur. Bu baxımdan müasir alış-veriş mərkəzləri, həm də istehlakçıların vaxtdan səmərəli istifadələri, gəzintiləri üçün bir fürsət sayılır. Ona görə də indi tanınmış istehsalçılar öz məhsullarını daha çox bu cür müasir xidmət sahələrində satmağa çalışır və ya bunun üçün məhsullarını satacağı ölkələrdə yer seçimini özləri müəyyənləşdirirlər. Elə bu cür araşdırmaların nəticəsidir ki, hazırda qardaş Türkiyə Respublikasının brend məhsul istehsalçıları Azərbaycanın gündən-günə inkişaf edən qədim Naxçıvan diyarına da böyük maraq göstərirlər. Yuxarıda da qeyd etdiyimiz kimi, muxtar respublikanın turizm imkanlarının genişlənməsi, həmçinin əhali artımı və sosial-iqtisadi inkişaf diyarımızı tanınmış məhsul istehsalçıları üçün cəlbedici məkana çevirib. Diqqət etsək, görərik ki, təxminən, son bir il ərzində paytaxt Naxçıvan şəhərində bir neçə brend məhsulun satıldığı ticarət obyekti yaradılıb.



Belə ki, ötən il mayın 10-da Azərbaycanın milli ətriyyat və kosmetika brendi olan "İdeal"ın Naxçıvan şəhərində mağazası fəaliyyətə başlayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin də açılış mərasimində iştirak etdiyi mağazada dünyanın məşhur firmalarının istehsal etdikləri məhsullar alıcılara təklif olunur. Məhsulların hər birinin mənşəyi və keyfiyyəti diqqətdə saxlanılır. Mağazada "İdeal" firmasının öz istehsalı olan müxtəlif məhsullar da satışa çıxarılır.

Yenə ötən il oktyabrın 3-də Naxçıvan şəhərinin Atatürk küçəsində Türkiyə Respublikasının "Koton" Moda və Satış firmasının yeni mağazası istifadəyə verilib. Mağaza qısa müddətdə yerli istehlakçıların və bura yolu düşən qonaqların rəğbətini qazanıb. Ali Məclis Sədrinin mağazanın açılışında söylədiyi fikirlər də diqqətçəkicidir: ***"Yeni xidmət sahələri, mağazalar və sosial obyektlər o ölkələrdə istifadəyə verilir ki, orada sabitlik və inkişaf var, insanların yaşayış səviyyəsi ilbəil yaxşılaşır. Azərbaycan da belə ölkələrdəndir. Ölkəmiz inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutub. Bütün bunların nəticəsidir ki, Azərbaycanda dünyanın ən tanınmış firmaları və şirkətləri fəaliyyət göstərirlər. Blokada şəraitində olmasına və ölkənin əsas ərazisindən ayrı düşməsinə baxmayaraq, Naxçıvan Muxtar Respublikasında da bütün sahələrdə inkişaf təmin olunub. Bu isə muxtar respublikada böyük firmaların fəaliyyəti üçün geniş imkanlar açır. "Koton" təkcə bir ölkəyə aid firma deyil, o dünya markasıdır. Firmanın o yerlərdə mağazaları fəaliyyət göstərir ki, orada inkişaf və sabitlik var, əhalinin yaşayış səviyyəsi və alıcılıq qabiliyyəti yüksəkdir. Məhz bu istiqamətlər üzrə apardığı araşdırmalardan sonra "Koton" firması Naxçıvanda da mağazasını açmağı qərara almışdır".***

Qeyd edək ki, "Koton" firmasının bir çox xarici ölkələrdə və Türkiyədə, ümumilikdə, 500-ə yaxın mağazası var. Hazırda firma hər il 50-dən artıq kolleksiyada alıcılara 30 min fərqli çeşiddə məhsul təklif edir.

2018-ci ilin iyul ayından isə Naxçıvan şəhərinin "Təbriz" küçəsində Türkiyənin məşhur "So CHIC" firmasının yeni mağazası fəaliyyətə başlayıb. "Sezgin qrup"un tərkibində fəaliyyət göstərən bu məşhur firma gümüş və qızıl aksesuarları sahəsində 60 ildən çoxdur, tanınır. Firmanın xarici ölkələrdə və Türkiyədə 100-dən çox mağazası var. Naxçıvan şəhərindəki mağazada da qadın və kişi aksesuarları, o cümlədən saatlar, bilərziklər, üzüklər satılır.

Cari ilin avqust ayında isə yenə də Türkiyənin məşhur "Panço" firması Naxçıvan şəhərində öz mağazasını müştərilərin üzünə açıb. Əziz Əliyev küçəsindəki Gənclər şəhərciyində fəaliyyət göstərən mağazada alıcılara, əsasən, 12 yaşa qədər uşaqlar üçün geyim çeşidləri təqdim olunur. Keyfiyyətli uşaq geyimləri üzrə ixtisaslaşmış firmanın hazırda Türkiyə və Avropada 100-dən çox mağazası, 250-dən çox satış nöqtəsi var.

Sentyabr ayının sonlarında isə yenə də Naxçıvan şəhərinin "Təbriz" küçəsində "Evim AVM" ticarət mərkəzinin açılış mərasimi olub. Bu obyektdə alıcılara müxtəlif növ və çeşiddə məişət əşyaları təqdim edilir. Burada satışa çıxarılan məhsullar Türkiyə Respublikasının 50-dən çox tanınmış firması tərəfindən yüksək standartlara uyğun istehsal olunub.

Qeyd etdiyimiz kimi, son bir il ərzində paytaxt Naxçıvan şəhərində bu cür brend məhsulların satıldığı satış obyektlərinin fəaliyyətə başlaması muxtar respublikanın turizm imkanlarını artırır. Eyni zamanda yeni iş yerlərinin yaradılmasına öz töhfəsini verir. Fəaliyyətə başlayan belə xidmət sahələrində brend məhsulların satılması isə əhalinin keyfiyyətli məhsullarla təmin olunmasına imkan yaradır. Şirkətlərin brendinq strategiyası ilə məşğul olan marketoloqların yaxşı bir sözü var: Əvvəllər brend məhsullar tanınma kimi qəbul edilirdisə, bu gün bəyənilmə kimi özünü təsdiq edir. Həqiqətən, hazırda Naxçıvan şəhərində alıcılara təqdim olunan Azərbaycan və türk brendindən olan məhsullar illərdir, dünya rəqabət bazarında özünü təsdiq etmiş məhsullardır. Belə məhsullar isə həm yerli sakinlərin, həm də əcnəbilərin tələbatını ödəyir.

**Səbuhi HƏSƏNOV**

# Sosial qayğıya ehtiyacı olan uşaqlara qış geyimləri verilib



Muxtar respublikamızda sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, aztəminatlı ailələrdən olan uşaqların sağlam böyüməsi, hərtərəfli biliklərə yiyələnmələri, milli və mənəvi dəyərlərə sadiq vətəndaş kimi yetişmələri, problemlərinin yerində həll olunması istiqamətində tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzindədir.

Görülən tədbirlərin davamı olaraq noyabrın 7-də Naxçıvan Muxtar Respublikası Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə sosial qayğıya ehtiyacı olan məktəblilərə qış geyimləri təqdim edilib.

Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində təşkil olunan tədbirdə təhsil naziri Rəhman Məmmədov, əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildiriblər ki, cəmiyyətimizin əsas özəyi olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, təhsilin və səhiyyə xidmətinin səviyyəsinin artırılması, uşaq yaradıcılığının dəstəklənməsi xalqımızın milli və mənəvi dəyərlərinə əsaslanan dövlət-uşaq siyasətinin əsasını təşkil edir.

Vurğulanıb ki, uşaq və yeniyetmələrin layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə mövqe tutması üçün dövlətimiz tərəfindən bütün imkanlar səfərbər edilib, uşaqların fiziki, intellektual və mənəvi inkişafının təmin olunması sahəsində əhəmiyyətli addımlar atılıb.

Tədbirdə sosial qayğıya ehtiyacı olan uşaqların valideynləri adından çıxış edən Mahirə Oktyabrski göstərilən yüksək dövlət qayğısına görə dövlətimizə minnətdarlıq edib.

Sonra aztəminatlı ailələrdən olan, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş məktəbli uşaqlara, sağlamlıq imkanları məhdud şagirdlərə qış geyimləri verilib.

Qeyd edək ki, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 46, sağlamlıq imkanları məhdud 278, aztəminatlı ailələrin övladlarından isə 70 olmaqla, ümumilikdə, 394 uşaq isti qış geyimləri ilə təmin edilib.

Həmin gün muxtar respublikanın rayonlarında da analoji tədbirlər təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Muzeyə 80-dən çox eksponat təqdim olunub



Dünən Kəngərli rayon Qıvraq qəsəbə sakini, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Tofiq Rüstəmov, Qarabağlar kənd sakinləri Samirə Məmmədova, Gülçin Ağayeva, Aysel Şəfiyeva tərəfindən qədim tariximizi və mədəniyyətimizi əks etdirən bədii tikmə, toxuculuq məmulatı, mis qablar, saxsı küplər və digər nümunələrdən ibarət 80-dən çox eksponat Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilib.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova muxtar respublikada tariximizin və mədəniyyətimizin saxlanc yeri olan muzeylərə son illərdə göstərilən dövlət qayğısından bəhs edib.

Diqqətə çatdırılıb ki, Mədəniyyət Nazirliyi tərəfindən muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzey əməkdaşları və muxtar respublika sakinləri də yaxından iştirak edirlər. Bu ilin 10 ayı ərzində muxtar respublika muzeylərinə 1243 yeni eksponat daxil olub, 7 eksponatın təqdimatı keçirilib.

"Bu gün Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən növbəti eksponat təqdimatı göstərir ki, muxtar respublikada belə tədbirlər ənənə halını alıb", – deyən Natəvan Qədimova vurğulayıb ki, əhali arasında bu istiqamətdə maarifləndirici və təbliğat xarakterli tədbirlər gələcəkdə də davam etdiriləcək.

Sonra eksponatları muzeyə hədiyyə edənlər çıxışlarında bildiriblər ki, maddi-mədəni irsimizin qorunması baxımından belə tədbirlər əhəmiyyətlidir. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

# Oktyabr ayında 539 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb

***Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı, torpaq sahələrindən səmərəli istifadənin təmin edilməsi, torpaqların elektron uçotunun aparılması 2018-ci ilin oktyabr ayında da davam etdirilmişdir.***

Ötən dövrdə Şərur rayonunun Məmmədsabir, Gümüşlü, Maxta, Muğancıq-Mehrab və Yuxarı Yaycı kəndlərində daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılmış, 1884 daşınmaz əmlak obyekti plana alınmışdır. Şərur rayonunun Yuxarı Daşarx, Oğlanqala, Dizə, Həmzəli və Aşağı Yaycı bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri, Naxçıvan şəhər inzibati ərazi vahidinin tərkibinə daxil olan Qaraxanbəyli bələdiyyəsinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritəsi hazırlanmışdır.

Oktyabr ayında 539 daşınmaz əmlak obyekti qeydiyyata alınmış, yeni yaranmış 64 daşınmaz əmlak obyektinə ünvan verilmiş, Naxçıvan şəhərində ünvan lövhələrinin quraşdırılması davam etdirilmişdir. Daşınmaz əmlakın dövlət reyestrinin müasir tələblər səviyyəsində aparılması üçün elektron qeydiyyat sistemində təkmilləşdirmə işləri aparılmış, elektron çıxarışların verilməsi təmin olunmuşdur.

Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 57 vətəndaşın müraciətinə baxılmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Pensiyaların poçt şöbələri vasitəsilə alınması üçün də hər cür şərait yaradılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Babək Rayon Şöbəsi pensiyaçılara yüksək səviyyədə xidmət göstərilməsi üçün öz fəaliyyətini günün tələblərinə uyğun şəkildə qurub. Rayon ərazisindəki bütün pensiyaçıların pensiyalarını plastik kartlarla bankomatlar vasitəsilə alması üçün hər cür şərait vardır.

Qeyd edək ki, əmək pensiyaçıları plastik kartlardan istifadə edərək pensiyalarını istənilən vaxt rahat şəkildə ala bilməklə yanaşı, müxtəlif kommunal xidmətlərin elektron qaydada ödənişini həyata keçirmək imkanını da qazanırlar. Bundan başqa, ucqar dağ və sərhəd kəndlərində yaşayan pensiyaçıların rayon mərkəzinə və Naxçıvan şəhərinə gəlmədən pensiyalarını rahat şəkildə əldə etmələri üçün də müvafiq tədbirlər görülüb. Belə ki, onların ərizələri nəzərə alınmaqla kənd yerlərində pensiyaların poçt şöbələri vasitəsilə ödənilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Babək Rayon Şöbəsi ilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Babək rayon filialı arasında müqavilə imzalanıb. Nəticədə, həmin rayonun kəndlərində yaşayan pensiyaçılar vaxta və vəsaitə qənaət edərək öz pensiyalarını yerlərdəki poçt şöbələrindən asanlıqla ala bilirlər. Rayon ərazisində pensiyalarını poçt şöbələri vasitəsilə almaq istəyənlərin sayı gündən-günə artır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

*Yurdumuzun nemətləri*

# "Qırmızı yaylıqlı" dağlar gözəli

***Şəhərimizdə hər şənbə günü təşkil edilən kənd təsərrüfatı məhsullarının satış yarmarkasında ötən həftə tez-tez qulağıma dəyən "Yemişan, yemişan, Keçili yemişanı, Nursu yemişanı" sözləri məni xəyalən bir neçə onillik əvvələ apardı. Elə ki payızın bu vədəsi olardı, dağlarımızın, düzlərimizin soluxmuş hüsnünə "qırmızı yaylıqlı" yemişan kolları xüsusi gözəllik qatardı.***

Elə vədəsində burnumuza da yemişanın ətri gələr, bu vaxtlar hər dəfə dərsdən çıxanda gözümüz yemişan satanları axtarardı. Və nəhayət, günlərdən birində onları qarşılarında qıpqırmızı yemişan dolu vedrə, üstündə bir stəkan, bir də ki satdıqları yemişanı içərisinə qoymaq üçün kağızdan, köhnə qəzetdən, dəftər vərəqlərindən düzəltdikləri bir dəstə bükümlə məktəb yolundakı ağacların altında əyləşdiklərini görərdik. Bunu gördükmü, hər gün 20 qəpiksiz evdən bayıra addım atmazdıq... Stəkanı 20 qəpiyə satılan yemişandan alıb, yolboyu şirin-şirin yemək üçün... Amma biz yemişanımızı o kağız bükümlərə yox, cibimizi aralayıb ora tökmələrini istərdik. Sonralar bunu həmyaşıdlarımla birgə elə hey xatırlayar, axır qənaətimiz isə belə olardı ki, axı yemişanı satmaq üçün yığanlar yox, qoyun-quzu növbəsinə gedənlər onu cib-cib yığardılar. Hər dəfə kəfşənə gedəndə bir cib, iki cib. Əvvəllər babamız, sonralar isə əmimiz, dayımız çöldən gələndə bir cib yemişanı çıxarıb birimizə verər, bölün, yeyin, – deyərdi. Uşaqlığımızın ən ləziz, dadlı hədiyyəsini ləzzətlə, şirin-şirin yediyimiz üçün sonralar da onu ciblərimizə doldurub yeməkdən ayrıca zövq alardıq. Yemişanı yığanlar da vedrələri dolanda onu satışa çıxarardılar. Bir də uşaqlıq hafizəmdə həmişəlik qalan bu giləmeyvənin uzun müddət xarab olmamasıdır. Otun, samanın üstünə sərdinmi, rəngi daha da qızarar, dadı şirinləşər, qurudulmuşu isə xarab olmaz.



İndi Şahbuz rayonunun Biçənək və Batabat meşəliklərində, Ağbulaq, Gömür, Nursu, Keçili, Külüs kəndlərində üzüyuxarı yol boyunca budaqları barından yerə dəyən "qırmızı yaylıqlı" kollar gözəlliyi ilə yolçunu yoldan edir. Doqquzdonu, zirinc və həmərsindən dərməmiş, yemişandan doyunca yeyib, bir cib yığmamış, gəl bu kollardan yan keç görüm, necə keçirsən. Xatirələr bir neçə il bundan əvvəl Keçili kənd sakini Dilsuz müəllimlə yemişan barədə söhbətimizi də yada salır. O deyirdi ki, biz kənd adamları qan təzyiqi xəstəliyinin nə olduğunu bilmirik. Çünki ayağımız yer tutandan kəndimizin dağında, dərəsində günün hər vaxtında, hər vədəsində bu giləmeyvələrdən yeyib hətta aclığımızı belə, unudardıq. Bu vədələr qoyun-quzu nobatına getmək payızın yağışına, yağmuruna tuş gəlmək demək idi. Amma buna baxmayaraq, gəncliyimizdə yemişan, həmərsin, doqquzdonu həvəsilə dağlara üz tutardıq. Qar yerə düşənə kimi kolun üstündə "qərar tutan" yemişan şaxta vurduqda tökülər və daha yeməli olar. Şirinliyi ilə adamı şirnikdirən yemişanı yedikcə yeyərdik. Sən demə, bununla özümüz də bilmədən sağlamlığımızı möhkəmləndirirmişik.

Yadımdadır, söhbətimizin bu yerində Dilsuz müəllimin gözləri doldu, səsi bir qədər titrədi və dedi: – Yazda çöl-bayır işində olan böyüklərimizin yemişan və həmərsin çiçəklərindən ocaq üstə dəmlədiyi çaydan içmək üçün əldən-ayaqdan gedərdik. Çünki o çayın ayrı bir dadı, ləzzəti olardı. O çaydan içib qızmar günəş altında tər tökən ata-babalarımız payızda yemişanın meyvəsini yeyər, mürəbbəsi ilə çay içərdilər. Onda kəndli bazardan meyvə alıb mürəbbə bişirməyi ar bilərdi. Kəndin çölündə, çəmənində, öz həyət-bacasında olanlardan qışa azuqə yığardılar. Dava-dərman tanımayan insanlar beləcə, uzun ömür sürərdilər. Təbiətin səxavətli vədəsində – payızda yetişən yemişan kolları blokadanın ilk illərində darda qalan insanlara ümid yeri oldu. Oduncağı daş kömürə bərabər olan yemişan kolları elə barı üstündə qırılıb çatılırdı. Həmin vaxtlarda kəndlərimizdə dağlarımızda yemişan kolları azalmağa başladı. Amma, şükürlər olsun ki, bu, uzun zaman davam etmədi. Sonrakı illərdə dövlətimizin qayğısı nəticəsində işığımız, qazımız bərpa olundu, yenə də çöllərimizdə qucaq-qucaq yemişan kolları böyüdü, bara doldu. İndi kəndlərimizə qonaq gələn şəhərli qohumlarımıza əziz paydır yemişan. Onun çiçəyi də, meyvəsi də dərmandır.

Yeri gəlmişkən, bu giləmeyvə gülçiçəklilər fəsiləsindəndir. Ağac və ya iri kol bitkisi olub, növbə ilə düzülmüş yumurtaşəkilli yarpaqları vardır. Yarpaqlarının kənarı mişarvarıdır. Ağ rəngli ətirli çiçəkləri, uzunsov kürəvarı, lətli və şirəli meyvəsi olur. Yetişən vaxt qırmızı, qara, şabalıdı və sair rəngə boyanır. Meyvəsinin içərisində açıq-sarı rəngli toxumları yerləşir. Bitki may-iyun aylarında çiçək açır, sentyabr-oktyabr aylarında meyvələri yetişir. Bu bitkinin Azərbaycanın bir çox bölgələrində – dağ-meşə rayonlarında 9 növünə rast gəlinir. Muxtar respublikamızın müxtəlif yerlərində isə yemişanın bir neçə növü geniş yayılıb.

Nursulu Murtuza əmi ilə yemişanın qurudulması və faydaları barədə söhbətləşdik: – Yemişan meyvələrini ağ kağız üzərində seyrək sərib, tez-tez çevirməklə qurutmaq lazımdır. Belə şəraitdə qurudulmuş meyvələr təbii rəngini saxlayır, kimyəvi tərkibini dəyişmir. Qurumuş meyvələri xüsusi torbalara doldurub, havası daim dəyişilən quru yerdə saxlayırlar.

Yurdumuzun bəzəyi olan bu nemətin meyvəsindən və çiçəklərindən çox qədim vaxtlardan xalq təbabətində bir sıra xəstəliklərə qarşı istifadə edilib. Bu yerlərin dərdinə dərmanı həmişə türkəçarələrdə, dərman bitkilərində tapan sakinləri onun qurudulmuş çiçəklərindən və meyvələrindən çay kimi dəmləyib, ürək ağrıları zamanı və qan təzyiqi yüksək olanda içərlər. Elmi təbabətdə yemişandan ürək-damar sistemi xəstəliklərinin müalicəsində, xüsusən ürək fəaliyyəti zəifliyinin, aritmiyanın, aterosklerozun aradan qaldırılması məqsədilə geniş istifadə olunur.

Murtuza əmi maraqlı bir faktla yemişanın kənd təsərrüfatında mühüm əhəmiyyətə malik olmasını da vurğulayaraq deyir ki, sağlam malqaranın yeminə yemişan meyvələri əlavə etdikdə onların südü xeyli artır və süddə yağın miqdarı çoxalır.

Şirin sözlü-söhbətli, poeziya vurğunu nursulu Səkinə xala isə yemişanı bu yerlərdə dağlar gözəli adlandırdıqlarından, onun gözəlliyinin bu vaxtlar kəndə gələn hər kəsi valeh etdiyindən danışır: – Bakıda bir qadın tanışımız var. Ötən payız birinci dəfə idi ki, bura gəlirdi. Yol kənarlarında yemişan kollarını görmüşdü. Çox maraqla onun haqqında soruşduqda, mən bədahətən:

*Əzizim, yemişan gözəl,*
*Dağa, düzə şan, gözəl.*
*Dadını soruşma, gəl,*
*Bal şanıdı bu gözəl.*

– dedim. Sonra onunla birlikdə evimizin yaxınlığındakı kəfşənə getdik. "Qırmızı yaylıqlı" yemişan kollarına valeh oldu, meyvəsinin dadına, ətrinə heyran qaldı. Dedi ki, belə gözəlliyi görən ölərmi? Dedim, hər payız gəl, sən də gör:

*Əzizim, yemişana gəl,*
*Bu vədə, bu anda gəl.*
*Yemişan qırmızı şalın,*
*Başına salanda gəl.*

Bəli, dağ-dərələrimizin, düzlərimizin min bir adda nemətləri – erkən yazdan bulaqotu, yarpız, qazayağı, çiriş və cacığı, bir az sonra göbələk, uşqun, sobu, bolu, çaşır, baldırğan, əvəlik, ələyəz və şıppırı, yay uzunu kəklikotu, dağ nanəsi, çobanyastığı və solmazçiçəyini, payızdan qar yerə düşənədək həmərsin, zirinc, doqquzdonu, yemişanı və daha nələri var. Hər dəfə bazarlarımızda, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında bu nemətləri piştaxtalara düzüb satanları görəndə qürur hissi duyursan. Bir tərəfdən ona görə ki, indi kənd adamlarına bax belə bir şərait yaradılıb, onlar həm yaranışdan ruzi mənbəyi olan dağlarımızın, düzlərimizin min bir nemətini, həm də özlərinin əkib-becərdiklərini bazarlarımızda, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında sərbəst şəkildə sata, xeyir götürə, dolanışıqlarını qura bilirlər. Digər bir tərəfdən isə qürur duyursan ki, havası, suyu kimi torpağının hər qarışının yetirdiyi nemətləri də min bir dərdə dərman olan belə bir diyarda yaşayırıq. Bu bərəkətli, səxavətli dağların, düzlərin sahibi bizlərik. Nemətlərinin hər biri təbiətimizə "qırmızı yaylıqlı" yemişan kimi öz naxışı ilə doyumsuz gözəllik qatan dağların, düzlərin...

**Mətanət MƏMMƏDOVA**

## Tələbələrlə görüş

*Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin təşkilatçılığı ilə Naxçıvan Müəllimlər İnstitutunda muxtar respublikada yaşayıb-yaradan qələm sahibləri ilə tələbələrin görüşü keçirilib. Tədbiri giriş sözü ilə təhsil ocağının rektoru, dosent Elbrus İsayev açıb.*



Bildirilib ki, muxtar respublikamızın təhsil ocaqlarında tələbələrin yazı, mütaliə vərdişlərini inkişaf etdirmək və onları yaradıcılığa həvəsləndirmək məqsədi daşıyan görüşlərin keçirilməsi artıq ənənə halını alıb.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar çıxışında qeyd edib ki, Azərbaycan ədəbiyyatı tarixən özünəməxsus xüsusiyyətləri və ənənələri ilə seçilib. Tarixin bütün dövrlərində Naxçıvanda yaşayıb-yaradan yazıçı və şairlər ədəbiyyatımıza öz töhfələrini veriblər.

Asim Yadigar Yazıçılar Birliyinin tarixinə nəzər salaraq vurğulayıb ki, indiyə kimi 30-a yaxın almanax dərc olunub. Bunların 16-sı son 11 ildə işıq üzü görüb. Şair və yazıçıların əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib, onlar Prezident mükafatına və fəxri adlara layiq görülüblər.

Yazıçılar Birliyinin üzvlərindən tədbirdə iştirak edənlər çıxışlarında muxtar respublikada yaradıcı qələm sahiblərinə göstərilən dövlət qayğısından danışıblar.

Təhsil ocağının məzunlarından Mirşahin Seyidov, Ayxan Hüseynov və başqalarının bədii qiraət etdikləri şeirlər maraqla qarşılanıb.

Sonda tələbələrin sualları cavablandırılıb. Öz şeirlərini bədii qiraət edən tələbələrə hədiyyələr verilib.

**Ramiyyə ƏKBƏROVA**

## Dərin tibbi müayinələr başa çatıb

***Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının ixtisaslı həkim briqadası tərəfindən cari ilin payız mövsümünün dərin tibbi müayinələri oktyabrın 8-dən 31-dək həyata keçirilib.***

Müayinələr 12 min 155 nəfəri əhatə edib. Şagirdlər arasında aşkar edilən xəstəliklərin kompleks müayinəsi üçün onların müvafiq səhiyyə müəssisələrinə göndərilməsinə göstəriş verilib.

Qeyd edilməlidir ki, müayinələrin normal təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunaraq məktəblərə göndərilib. Orta məktəblərdə çalışan tibb işçiləri xəstəxananın Poliklinika şöbəsinə dəvət olunub, lazımi izahatlar verilib. Şagirdlər əvvəlcədən məktəb həkimləri tərəfindən müayinələrdən keçərək qruplaşdırılıb. Profilaktika məqsədilə maarifləndirmə işi gücləndirilib.

Məktəblərdə aparılan tibbi müayinələrdən sonra bu tədbir Naxçıvan şəhərindəki məktəbəqədər müəssisələrdə davam etdirilib.

**Hüseyn ƏSGƏROV**

## Naxçıvan gömrükçülərindən növbəti uğurlu əməliyyat:
## *105 kiloqramdan artıq heroin aşkar edilib*

Naxçıvan gömrükçüləri külli miqdarda narkotik vasitənin muxtar respublika ərazisindən tranzit keçməklə qaçaqmalçılıq yolu ilə aparılmasına növbəti cəhdin qarşısını alıblar. Narkotik qaçaqmalçılığı faktı Naxçıvan Muxtar Respublikasının Culfa gömrük-sərhəd buraxılış məntəqəsində qeydə alınıb.



Belə ki, Naxçıvan Muxtar Respublikasına gələn 1967-ci il təvəllüdlü Türkiyə Respublikası vətəndaşı Bəkir Koroğlunun idarə etdiyi 79 EE 567 dövlət nömrə nişanlı "Renault" markalı yük maşınına rentgen qurğusu vasitəsilə gömrük baxışı həyata keçirilən zaman qoşqunun döşəmə hissəsinin təsvirləri əsasında gizli saxlanc yerləri müəyyən olunub.

Gömrükçülər tərəfindən 79 AA 509 nömrə nişanlı qoşqunun şübhəli hissəsinə fiziki baxış həyata keçirilərkən 104 bükümdə qablaşdırılaraq xüsusi qaydada gizlədilmiş ümumi çəkisi 105,4 kiloqram narkotik vasitə – heroin aşkar edilərək götürülüb.

Narkotik yüklü avtonəqliyyat vasitəsinin Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına gedəcəyi müəyyən olunub. Saxlanılan şəxs ilkin ifadəsində narkotik vasitəni Naxçıvan üzərindən Türkiyəyə keçirməklə İstanbul şəhərinə aparacağını deyib.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq şöbəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi açılıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi əmin edir ki, qaçaqmalçılığa, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri bundan sonra da qətiyyətlə davam etdiriləcək, narkoticarətdə muxtar respublikamızın tranzit kimi istifadə olunmasına imkan verilməyəcəkdir.

**Rahil TAHİRLİ**
***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru***

***Kəngərli rayon tam orta məktəblərinin şagirdləri arasında 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunmuş ekstremal idman növləri üzrə keçirilən rayon birinciliyinə yekun vurulub.***

## Ekstremal idman növləri üzrə yarış keçirilib



Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Hava və Ekstremal İdman Növləri Federasiyasının rayon bölməsinin təşkilatçılığı ilə keçirilən birincilikdə 8 məktəbin, ümumilikdə, 60 şagirdi iştirak edib.

Əsasnaməyə uyğun olaraq yarış 2000 metr məsafə üzrə təyin olunub. Yekunda oğlanlar arasında Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin şagirdi Sunay Mütəlov qalib adını qazanıb. Həmin kəndin 1 nömrəli tam orta məktəbinin şagirdi Sinan Cəlilov ikinci, 2 nömrəli tam orta məktəbin şagirdi Təhmin Hacıyev isə üçüncü olublar.

Qızların mübarizəsində isə finiş xəttinə ilk olaraq Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin şagirdi Aydan Rzayeva çatıb. Bu məktəbin digər şagirdləri Bülbül Hüseynova və Lalə Cəfərova ikinci və üçüncü olublar.

Sonda qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

"S – Aralıq" MMC-nin möhürü itdiyindən etibarsız sayılır və adı dəyişdirilərək "Mynakhchivan" MMC-yə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 817